## Azərbaycan ədliyyəsi – 100

***❒ Ulu öndər Heydər Əliyev demişdir: "Əsrlər boyu xalqımız böyük tarixi yol keçibdir. Tariximizin hər səhifəsi bizim üçün əzizdir. Şübhəsiz ki, tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də, faciəli səhifələri də var". Tariximizin parlaq səhifələrindən biri budur ki, 28 may 1918-ci ildə Tiflis şəhərində Azərbaycan Milli Şurası Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında qərar vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması XX əsrin əvvəllərində xalqımızın milli özünüdərketmə prosesinin qanunauyğun və məntiqi nəticəsi idi.***

# Bir əsrlik şərəfli yol

28 may 1918-ci il tarixdə, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 9 nəfərdən ibarət tərkibdə ilk hökumətinin təsdiq edilməsi haqqında qərar qəbul olunmuşdur. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək, dövlətimizin yarandığı gün – 1918-ci il mayın 28-də Ədliyyə Nazirliyi təsis edilmiş və Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur.

AXC dövründə Ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Cəzaçəkmə yerlərində aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq, hökumətin 11 avqust 1919-cu il tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan Andlı İclasçılar Məhkəməsinin təsis edilməsi haqqında", ADR-in yaranmasından il yarım keçməsi münasibətilə ümumi amnistiya haqqında və digər qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.

Bildirməyi zəruri hesab edirik ki, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində bir sıra normativ-hüquqi aktlar qəbul olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətində qanun yaradıcılığı prosesi spesifik xüsusiyyətlərə malik idi. Belə ki, müxtəlif nazirliklərin, o cümlədən Ədliyyə Nazirliyinin nəzdində qanun layihələrinin işlənib hazırlanması üzrə komissiyalar fəaliyyət göstərirdi. Bəzi nazirliklərdə qurumlar yardımçı komissiyalara ayrılırdılar. Məsələn, Ədliyyə Nazirliyinin 11 fevral 1919-cu il tarixli qərarı ilə nazirliyin nəzdində yaradılmış "Məhkəmələrlə bağlı qanun layihələri"nin işlənib hazırlanması üzrə komissiya aşağıdakı beş yardımçı komissiyalardan ibarət idi:

– Ali Məhkəmənin təsisi üzrə;

– yerli məhkəmə üzrə;

– ədalət mühakiməsinin həyata keçirilməsində iştiraka ictimaiyyətin cəlb edilməsi üzrə;

– cinayət hüququ və cinayət prosesinin bəzi qanun müddəalarına baxılması üzrə;

– mülki hüquq və mülki prosesin bir sıra qanun müddəalarına baxılması üzrə.

Qanun layihələrinin mətninin hazırlanması hər hansı hüquq normasının qəbuluna, yaxud dəyişdirilməsinə olan tələbatın üzə çıxmasından sonra başlanır və bütün qanun layihələri bu tələbatı əsaslandıran "İzahlı qeydlərin" verilməsi ilə müşayiət olunurdu.

Müasir dövrdə olduğu kimi, bu mərhələlər aşağıdakılardan ibarət idi:

– qanun layihəsinin irəli sürülməsi və ya qanunvericilik təşəbbüsü;

– qanun layihəsinin müzakirəsi;

– qanunun qəbulu;

– qanunun dərc edilməsi.

Əsas və yardımçı komissiyalarda işlənib hazırlanmış qanun layihələri rəy verilməsi üçün Nazirlər Şurasına göndərilirdi və onun rəyi ilə birlikdə müzakirə olunması üçün parlamentə təqdim edilirdi. Parlamentin müvafiq komissiyalarında bu qanunların müzakirəsi davam etdirilirdi. Bəyənilən qanun layihələri parlamentin iclaslarına çıxarılırdı.

1920-ci il aprelin 28-də Sovet Rusiyasının XI ordusu Azərbaycan Xalq Cümhuriyyətini işğal etdikdən sonra İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluğa, Ali Məhkəməyə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1933-cü ildə məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi, bütün hakimiyyət orqanlarının, təsərrüfat müəssisələrinin, ictimai birliklərin və fiziki şəxslərin hərəkətlərinin qanuniliyini müşahidə etmək məqsədilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili,



penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, prokurorluğa və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir.

1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 dekabr 1959-cu il tarixli qərarı ilə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə olunmuş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil edilmiş və bununla da Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

Ədliyyə Nazirliyinin yenidən yaradılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş, bununla da Azərbaycanın ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə – 1973-cü il dekabrın 27-də "Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanunu qəbul edilmişdir. Bu qanun dövlət notariat kontorlarının təşkili və fəaliyyətini tənzimləyən normativ hüquqi əsasların təkmilləşdirilməsinə yönəlmişdir. Həmin qanunla ilk dəfə olaraq dövlət notariatı haqqında qanunvericiliyin xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə də tətbiq edilməsinin nəzərdə tutulmasını mütərəqqi addım saymaq olar.

"Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanununun tətbiqi qaydasını müəyyən etmək məqsədilə Azərbaycan SSR ədliyyə naziri 1975-ci il mayın 30-da "Azərbaycan SSR-in dövlət notariat kontorları tərəfindən notariat əməliyyatları aparılması qaydası haqqında" Təlimatı təsdiq etmişdir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ümummilli liderin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.

1999-cu il noyabrın 26-da Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul olunan müstəqil Azərbaycan Respublikasının "Notariat haqqında" Qanunu 2000-ci il yanvarın 30-da rəsmi mətbuatda dərc olunaraq qüvvəyə minmişdir. Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti 18 yanvar 2000-ci il tarixli fərman imzalamışdır. Həmin qanunun tətbiqi qaydasını müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 №-li qərarı ilə "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat" təsdiq edilmişdir.

"Notariat haqqında" Qanunda nəzərdə tutulan əsas yeniliklərdən biri ondan ibarətdir ki, bu qanunda dövlət notariusları ilə bərabər ilk dəfə olaraq xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsinin mümkünlüyü qeyd olunur.

Ədliyyə nazirinin 11 oktyabr 2000-ci il tarixli 140-ş/h nömrəli əmri ilə notariat fəaliyyəti üzrə kargüzarlığın aparılmasının vahid qaydasını müəyyən edən "Azərbaycan Respublikasında notariat fəaliyyəti üzrə kargüzarlığın aparılması haqqında Təlimat" təsdiq olunmuşdur.

Ulu öndərin ədliyyə sahəsinə göstərdiyi böyük qayğının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı sərəncamla Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir. Azərbaycan ədliyyəsinin zəngin tarixini öyrənmək, bu orqanın ədalət mühakiməsinin həyata keçirilməsində, insanların hüquq və qanuni mənafelərinin qorunması sahəsində müsbət fəaliyyətini indiki və gələcək nəsillərə çatdırmaq, ədliyyə orqanlarının yaxşı ənənələrini qoruyub saxlamaqla bu işdə varisliyi təmin etmək, kadrları bu orqanın qabaqcıl ənənələri ruhunda tərbiyə etmək, ədliyyə fəaliyyətinin ictimaiyyət arasında təbliğini genişləndirmək məqsədilə Azərbaycan Respublikasının ədliyyə naziri cənab Fikrət Məmmədovun 16 avqust 2001-ci il tarixli əmri ilə Azərbaycan ədliyyəsinin tarixi muzeyi yaradılmışdır.

Azərbaycan Respublikası 2004-cü il mayın 13-də 5 oktyabr 1961-ci ildə Haaqada bağlanmış "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"ya qoşulmuşdur. Bu konvensiyanın Azərbaycan Respublikasına münasibətdə 2 mart 2005-ci ildən qüvvəyə minməsi ilə əlaqədar ədliyyə naziri 2005-ci il 15 fevral tarixli 6-T nömrəli əmr ilə apostilin formasını təsdiq etmişdir.

28 dekabr 2004-cü il tarixdə "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda göstərilir ki, Məhkəmə-Hüquq Şurası Azərbaycan Respublikasında məhkəmə sisteminin təşkilinin və hakimlərin müstəqilliyinin təmin edilməsi, vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqandır.

Beləliklə, ölkəmizdə aparılan islahatlar nəticəsində yeni təsisat – məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təşkil olunmuş və 2005-ci ilin fevral ayından fəaliyyətə başlamışdır. 15 nəfərdən ibarət olan Şura əsasən hakimlərdən (9 nəfər) formalaşmış, eyni zamanda, onun tərkibinə hakimiyyətin digər qollarının, habelə məhkəmə prosesində tərəf olan prokurorluğun və vəkilliyin nümayəndələri də daxil olmuşlar.

Azərbaycan Respublikası ədliyyə nazirinin 2005-ci il 23 noyabr tarixli 22-T nömrəli əmri ilə "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın, təcrübənin və müsahibələrin keçirilməsi Qaydası" təsdiq edilmişdir. Bu qayda "Notariat haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq məqsədi ilə şəhadətnamənin verilməsi üçün imtahanın, təcrübənin və müsahibələrin keçirilməsi, şəhadətnamənin və xüsusi notariusun qeydiyyat vəsiqəsinin verilməsi prosedurunu müəyyən edir.

Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin təşəbbüsü ilə 2006-cı ildə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuş, Ədliyyə Nazirliyinə vəzifələr həvalə edilmiş, strukturu təkmilləşdirilmişdir. Dövlət başçısının 18 aprel 2006-cı il tarixli fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə orqanı statusu verilmiş, habelə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli fərman imzalanmışdır.

Azərbaycan Respublikası ədliyyə naziri Fikrət Məmmədovun 29 aprel 2006-cı il tarixli 7-T nömrəli əmri ilə "Azərbaycan Respublikasında notariat fəaliyyəti üzrə kargüzarlığın aparılması haqqında" yeni Təlimat təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 fevral 2009-cu il tarixli sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" təsdiq edilərək həyata keçirilmişdir. Son illərdə notariat, qeydiyyat və ekspertiza mərkəzi, eləcə də penitensiar və icra xidmətlərində islahatlar davam etdirilərək işin səmərəli təşkili üçün mövcud olan problemlərin aradan qaldırılması, kadrların məsuliyyət hissinin artırılması üzrə ciddi tədbirlər həyata keçirilmişdir.

"Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə" ölkə başçısının 2015-ci il 14 iyul 569 nömrəli Fərmanının 5.3-cü bəndinin və 6-cı hissəsinin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 12 fevral 2016-cı il tarixli 4-N nömrəli Qərarı ilə "Azərbaycan Respublikasında notariat fəaliyyəti üzrə kargüzarlığın aparılması haqqında" yeni Təlimat təsdiq edilmişdir.

Sevindirici haldır ki, Azərbaycan Demokratik Respublikası ilə yaşıd olan Azərbaycan ədliyyəsinin 2018-ci il noyabr ayının 22-də 100 illiyi tamam olur. Ölkə Prezidenti tərəfindən "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis olunması ədliyyə fəaliyyətinə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

***Daxil KƏRİMOV,***
***Bakı şəhəri 21 saylı notariat kontorunun notariusu***